

**Təbiət həmişə gözəldir. O, insandan daha qabaq gözəlliklər yaratmış, indi də bu səxavətini əsirgəmir. Təbiət bitkin deyil. Ona həmişə bir şey əlavə olunmalıdır. Quşlarda qəribə bir adət var: yuvalarını qoşalaşıb tikirlər. Quşu, heyvanı əhliləşdirən isə bizik. Təbiət də bir evdir.**

# Ətraf mühiti qoruyaq

**Fransız yazıçısı Russonun bir kəlamını xatırladım: "Təbiətin əlindən çıxan hər şey yaxşıdır, hər şey insanların əli ilə korlanır". Özü də elə korlanır ki, oturduğumuz budağı kəsməyimizi belə hiss etmirik. Təbiətin və cəmiyyətin qarşılıqlı əlaqəsi hazırki dövrün aktual, sosial fəlsəfəsidir. İnsan özü öz harayına gəlməli, ən kiçik səhvini belə tezliklə düzəltməlidir.**

Təbiətdən, ekologiyadan nə qədər yazmaq olar? Yaza-yaza yazdan yaya, payızdan qışa çıxmışıq. Təbiətə nankor, ögey münasibətdən deyirik, yazırıq. Kimisi yanğı ilə, kimisi yazı xatirinə. Ümid edirik, gözləyirik. Ümidsizlik ayağa bağlanmış daşdır. "Hərə bir tük versə, kosa da saqqallı olar". Təbiəti "kosa" vəziyyətinə biz övladları salmışıq. Onu nurani, ağsaqqal vəziyyətə də biz qaytarmalıyıq. Bu, ən əvvəl təsərrüfat rəhbərindən tələb olunur. Fikir verin: hansı təsərrüfat rəhbərindən xəbər alsan ki, üzüm sahəsində nə qədər cərgə var, yaxud fermada neçə baş inək var, toyuq-cücə var? O saat cavab verər. Di gəl meşədə bitən ağaclardan, suyunu içdiyi bulaqların suyundan bir söz deməyə çətinlik çəkər. Yeri gəlmişkən, Lerikdə alma bağları çoxdur. Gözəlliyin gözəlliyi harmoniyalılıqda, simmetriklikdə, mütənasiblikdədir.

Heyvanat aləmi təbiətin zirvəsi hesab edilir. Vaxtilə dağlarımızın, meşələrimizin bəzəyi olan belə heyvanların nəsli kəsilmək üzrədir. Respublika ərazisində bulaqların siyahıya alınması tədbiri keçirildi. Soruşuram: rayonumuzda irili-xırdalı neçə bulaq olduğunu kim deyə bilər?

Neçə kənddə, neçə təşkilatlarda olmuşam, cavabları susmaq olub. Vaxt gələcək daş bulaqlar mamırlı "saqqal" başdaşıya dönəcək. Halva-halva deməklə ağız şirin olmaz. Hamı danışır, hamı özünü can yandıran kimi qələmə verir. Əlbəttə, hərə öz mövqeyindən.

Dəvəquşuna deyirlər: "yük apar"- deyir: "mən quşam". Deyirlər "uç"- deyir: "mən dəvəyəm". Birinə deyəndə ki, ay filankəs, bu iş sənindir axı. Deyir: "Mənim işim bu deyil, mən əsas məsələlərlə məşğulam". Yox, belə deyildir, yoldaş vətəndaş. Ekologiya, ətraf mühitin sağlamlaşdırılması məsələsi hamımızın işidir. Məgər həyat məsələsi xırda işdirmi? Deyirlər səbr sevincin açarıdır. Səbr elə, halva bişər ey qora səndən... Səbr edə-edə oturduğumuz budağı kəsməkdəyik...

**Bir həkim tanışım həyəcanla bildirdi ki, torpaqdakı qida və su vasitəsilə insanlar bir sıra endemik xəstəliklərə tutulur. Ümumdünya səhiyyə təşkilatlarının verdiyi məlumata görə, hər il minlərlə uşaq suyun çirklənməsi ilə meydana çıxan xəstəliklər nəticəsində ölür. Ana təbiətə, onun sərvətlərinə sahib çıxmaq hamımızın borcudur. Gəlin onu sevək, qoruyaq. Bu, hər birimizin vətəndaşlıq borcudur.**

● **Ağaş MİRZƏZADƏ**
Lerik rayonunun Günəşli kəndi